Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

Azərbaycanın görkəmli şəxsiyyətləri

BƏXTİYAR VAHABZADƏ

(Vahabzadə Bəxtiyar Mahmud oğlu)

Biblioqrafiya

Bakı – 2015

KBT Я19:Ш+Ш5(2=Аз)7-44я1
UOT 016:821.512.162

Tərtib edənlər: **Mədinə Vəliyeva,**
Sevgiyə Əsədova,
Gülbahar Misirova

İxtisas redaktoru və buraxılışa məsul: **Kərim Tahirov,**
professor,
Əməkdar mədəniyyət işçisi

Redaktor: **Gülbəniz Səfərəliyeva,**
Əməkdar mədəniyyət işçisi

Bəxtiyar Vahabzadə: biblioqrafiya /tərt. ed.: M.Vəliyeva, S.Əsədova; ixt. red. və burax. məsul K.Tahirov; red. G.Səfərəliyeva; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2015.- 592 s. Azərbaycanın görkəmli şəxsiyyətləri.

Azərbaycan Milli Kitabxanasının “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasından hazırladığı “Bəxtiyar Vahabzadə” adlı biblioqrafik göstəricidə Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Xalq şairi Bəxtiyar Vahabzadənin 1943-cü ildən 2015-ci ilədək dərc edilmiş əsərləri, həyat və yaradıcılığı haqqında çap edilmiş materiallar toplanmışdır. Azərbaycan və rus dillərində tərtib edilmiş bu vəsaitdə şairin həyat və fəaliyyətinin əsas tarixləri, görkəmli şəxsiyyətlərin onun haqqında fikirləri də öz əksini tapmışdır.

Kitab ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978 9952 504 19 4

©Azərbaycan Milli Kitabxanası, 2015

Bəxtiyar Vahabzadənin 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2015-ci ilin avqust ayında Azərbaycanın xalq şairi, tanınmış dramaturq, ədəbiyyatşünas və ictimai xadim, SSRİ-nin və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, professor Bəxtiyar Mahmud oğlu Vahabzadənin anadan olmasının 90 illiyi tamam olur.

Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatı tarixinin xüsusi mövqeyə malik görkəmli simalarındandır. Sənətkarın insanı daim mənəvi ucalığa səsləyən poetik-fəlsəfi məzmunlu yaradıcılığı milli poeziyada vətəndaşlıq ruhunun qüvvətlənməsində və ədəbi-ictimai fikrin istiqlal ideyaları ilə zənginləşməsində böyük rol oynamışdır. Tarixi-mədəni dəyərlərə ehtiram və ana dilinin saflığının qorunması Bəxtiyar Vahabzadənin fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil edirdi.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ədəbi fikrin inkişafına dəyərli töhfələr bəxş etmiş xalq şairi Bəxtiyar Vahabzadənin 90 illiyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, xalq şairi Bəxtiyar Vahabzadənin 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 14 yanvar 2015-ci il

Tərtibçidən

2015-ci ildə Azərbaycanın Xalq şairi, görkəmli dramaturq, ədəbiyyatşünas və ictimai xadim, AMEA-nın həqiqi üzvü, bütün Türk dünyasının tanınmış şairi Bəxtiyar Mahmud oğlu Vahabzadənin anadan olmasının 90 illiyi tamam olur.

Bəxtiyar Vahabzadənin poeziyası, dramaturgiyası, publisistikası və ədəbi-tənqidi əsərləri çağdaş Azərbaycan ədəbiyyatının dəyərli nümunələri sırasında öz layiqli yerini tutmuşdur. Onun əsərləri dünyanın onlarla ölkəsində müxtəlif dillərə tərcümə edilmişdir.

Xalq şairi haqqında ilk biblioqrafik göstərici 1997-ci ildə BDU-nun professoru İfrat Əliyeva tərəfindən hazırlanmışdır (Bəxtiyar Vahabzadə: Biblioqrafik göstərici /tərt. İ.Əliyeva; elmi red. Ə.Xələfov; red. R.Əfəndiyeva.- Bakı: Maarif, 1997.- 199 s.). Oxuculara təqdim edilən bu biblioqrafik göstərici tamamilə yenidən işlənilmiş və çoxlu sayda əlavələr edilərək təkmilləşdirilmişdir. Vəsaitdə ədibin yaradıcılığı və fəaliyyətini əks etdirən 1943-2015-ci illərdə dərc edilmiş materiallar toplanmışdır.

Göstərici 3 hissədən ibarətdir: I hissə - Bəxtiyar Vahabzadənin əsərləri; II hissə - Bəxtiyar Vahabzadə haqqında; III hissə - Köməkçi göstəricilər. Bəxtiyar Vahabzadə yaradıcılığına xas olan janr və forma müxtəlifliyi nəzərə alınaraq ayrı-ayrı hissələr daxilində bölmələr yaradılmışdır. Bölmələr və yarımbölmələrdə materiallar xronoloji prinsiplə, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

Kitab ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirərək, təklif və rəylərini M.F.Axundov adına Milli Kitabxanaya göndərmələrini xahiş edirik.

Ünvan: AZ-1000, Bakı şəh., Xaqani küç. 57;
E-mail: contact@anl.az; **URL:** www.anl.

Bəxtiyar Vahabzadə
yaxud millətin şairi

Bəxtiyar Vahabzadə! İnsanşünas-şair, cəmiyyətşünas-filosof, millətşünas-ictimai xadim… Azərbaycan xalqının təsəvvüründə Bəxtiyar Vahabzadənin obrazı, hər şeydən əvvəl, bir Şair obrazı olaraq formalaşmışdır; bundan sonra Filosof obrazı, daha sonra isə İctimai Xadim obrazı müəyyənləşmişsə də, mənsub olduğu xalq onu, birinci növbədə, şair kimi tanıyır, sevir… Əslində, Bəxtiyar Vahabzadə şair kimi nə qədər güclü idisə, filosof kimi, ictimai xadim kimi də bir o qədər güclü idi - mənsub olduğu xalqın onu daha çox bir şair kimi sevməsinə gəldikdə isə bu, görünür, həmin xalqın tarixi xarakteri, mentaliteti ilə bağlıdır: Azərbaycan xalqının nəzərində ən böyük şəxsiyyət, heç şübhəsiz, Şairdir…

Ancaq müşahidələr, təhlillər göstərir ki, Bəxtiyar Vahabzadənin təfəkkürü, ehtirası, narahatlığı öz tipologiyası etibarilə, təkcə şair təfəkkürü, ehtirası, narahatlığı deyil, həm də (və bəzi hallarda daha çox!) filosof, yaxud ictimai xadim təfəkkürü, ehtirası, narahatlığı idi.

Bəxtiyar Vahabzadə Azərbaycan xalqının bizim əsrdə yetirmiş olduğu ən böyük şəxsiyyətlərdən biridir - məsələ bunda deyil (bu cür şəxsiyyətlər onlarladır!), məsələ ondadır ki, Bəxtiyar Vahabzadənin şairliyi də, filosofluğu da, ictimai xadimliyi də mənsub olduğu xalqa məxsusdur. O, bütünlüklə "Azərbaycan məktəbi"nin yetişdirməsi olmuş, bu məktəbin müasir təfəkkür imkanlarını nümayiş etdirmişdir. Ona görə də, hər necə olursa-olsun, Bəxtiyar Vahabzadənin yaradıcılığı dünya miqyasına öz "Azərbaycan qeydiyyatı" ilə çıxır.

Yəqin ki, Bəxtiyar Vahabzadəni tanımayan, sevməyən, daxilində onunla, onun poeziyası ilə dialoqa girməyən azərbaycanlı tapmaq çətindir. Azərbaycanın son onillərdəki böyük təfəkkür, idrak məktəblərindən biri məhz Vahabzadə məktəbidir – buraya yad, qeyri-milli "metodologiya" heç zaman yol tapmamış, millətin problemləri heç bir vəchlə saxtalaşdırılmamış, həqiqət, birbaşa de-

mək mümkün olmadıqda, ən azı dolayısı ilə deyilmişdir… Və bunu xüsusi vurğulamaq lazımdır ki, B.Vahabzadəni hər hansı həqiqətdən daha çox milli həqiqət (millətin həqiqəti!) maraqlandırmışdır: nə qədər böyük məhrumiyyətlərə məruz qalsa da, o, millətə xidmət etmək vəzifəsini həmişə şərəflə yerinə yetirmiş, milli ideallardan dönməmiş, milli həqiqəti söyləmişdir.

B.Vahabzadə məktəbi XX əsrin 50-ci illərində təşəkkül tapsa da, ardıcıl təkamül mərhələləri keçirmiş, milli problemlərin, idealların təsiri ilə formalaşmış, kamilləşmiş, həssaslıq, güclü reaksiya elastikliyi, çeviklik qazanmış, məktəbə çevrilmişdir.

B.Vahabzadə haqqındakı söhbət onun mənsub olduğu millət haqqındakı söhbətdir… B.Vahabzadənin yaradıcılığında millət özünü dərk edir…

Azərbaycan xalqı on il, iyirmi il, hətta əlli il bundan qabaq B.Vahabzadəyə nə cür inanırdısa, bu gün də onun cismani yoxluğunda da o cür inanır və onu millətin önündə gedən ən böyük şəxsiyyətlərdən biri hesab edir.

Nə üçün on illər boyu hər cür inamdan məhrum edilən bir millət B.Vahabzadəyə bu qədər inanmış, onun arxasınca getməyə həmişə hazır olmuşdur? Fikrimizcə, bunun əsas səbəbi odur ki, millət Bəxtiyarda öz iradəsinin ifadəsini görmüşdür – millətin iradəsinin bir nəfərdə ifadə olunmasının nəticəsi idi ki, hamı susanda B.Vahabzadə hamının əvəzinə "danışırdı", hamının sözünü deyirdi.

B.Vahabzadə Şəkidə dünyaya gəlmişdi…

B.Vahabzadənin yaradıcılığında şəkili xarakteri, "əsəb"i olsa da, "özünüz şəkili olduğunuz halda, niyə Şəkiyə bir şeir həsr etməmisiniz?" sualı verilənə qədər uzun müddət Şəkinin bədii obrazı olmamışdır. Həmin sual şairə aşağıdakı kövrək, unudul-maz misraları yazdırmışdır:

Bir nəğmə qoşmadım hələ
mən sənə,
Dağlar bunu mənə kəsir
sanmasın.
Mən dedim vurğunam
Azərbaycana,
Deyirəm, heç zaman
xırdalanmasın.

Könlümdən ucalan bu avaz,
bu səs:
Böyükdür, ucadır məsləkim
mənim…
Bala anasına "sevirəm"
deməz.
Mən də deməmişəm, a Şəkim
mənim.

Şair nə qədər böyük şöhrətə çatsa da, təbiətindəki uşaq kövrəkliyini, doğulduğu, yıxılıb dura-dura ilk addımlarını atdığı torpağa məhəbbətini heç zaman itirməmiş; yaşlaşdıqca, dünyanın isti-soyuğunu gördükcə körpəliyini, anasının nəvazişini daha çox xatırlayırdı.

Hardasan ay anam?!
Yenə bu axşam
Qayğına, sevginə quraqsamışam.
Bir uşaq olaydım təzədən, yenə
Məni bələyəydin məhəbbətinə.
Çox da ki, şöhrətdən başda
tacım var,
Bir isti nəfəsə ehtiyacım var.

Azıram yolumu dumanda, çəndə,
Qəlbim dolaşdırır gözüm
görəni.
İndi də yuxuda xortan görəndə
Səni çağırıram, ay anam, səni…
Əlinin istisi durur başımda,
Mən sənə möhtacam lap bu
yaşımda.

Bəxtiyar öz böyük poeziyası, müdrik fəlsəfəsi, coşğun publisistikası üçün birinci növbədə narahat ehtiraslarına borclu idi – narahat ehtiraslar insanı dağa-daşa sala bilər, onu "normal" həyatdan məhrum edər, ancaq həmin insanı, hər necə olursa-olsun, nəticə etibarilə

həqiqətin astanasına gətirib çıxarır. Azərbaycan yazıçılarının müəllimi Mirzə İbrahimov B.Vahabzadəyə həsr olunmuş məqalələrindən birində göstərir ki, onun təbiətli adamlar çox zaman rahatlıqlarını itirir, özlərini həyəcanlar selinə atmış olurlar…

Hələ 60-cı illərdə yazdığı bir şeirində təbiətindəki narahatlığı şair aşağıdakı şəkildə ifadə edirdi:

Gecə-gündüz, səhər-axşam
Mən yazıram, oxuyuram.
Yazılarım kitab-kitab.
Nə olsun ki,
Ürəyimə çoxu yatmır.
Şeirimdə də nəsə çatmır,
Sözümdə də nəsə çatmır.
Könlümüzdən
Keçənlərin arxasınca bir qoşuruq,
Çalışırıq, vuruşuruq.
Səsə düşür məramımız,
Əməlsə bu səsə çatmır
Düzü budur-
Sözümüzdə hər şey çatır,
Özümüzdə nəsə çatmır…

O, şair kimi hərəkət edir, filosof kimi hərəktlərini dərk eləməyə çalışır, ictimai xadim-publisist kimi həmin hərəkətlərinə qiymət verirdi.

"Azərbaycan dərdlərini hayqıran" (Yavuz Büləndi Bakilər) B.Vahabzadə, əslində, nəsihət verməkdən, yol göstərməkdən daha çox, daxilimizdə mürgüləyən hissləri oyadır, insanda insanlığı hərəkətə gətirirdi. O, öz iti psixoloji müdaxiləsi ilə oxucusunu düşünməyə məcbur edir - həm də o suallar üzərində düşündürür ki, həmin sualların cavabını çox zaman müəllifin özü də bilmir. Və qeyd edək ki, B.Vahabzadə yalnız gəlib çıxdığı həqiqətləri tərənnüm (təqdim!) etməklə məhdudlaşmır, onun çılğın təfəkkürü bəzən təzadlar arasında həqiqət axtarır, bəzən də tərəddüdlər içərisində qalır. Oxucu

bunu görür, böyük düşüncə sahibinin arxasınca getməyə daxili ehtiyac hiss edir.

Yaradıcılığa başladığı dövrdən Bəxtiyar Vahabzadə eyni məhsuldarlıqla yazıb-yaratmışdır – bu baxımdan onu Azərbaycanın heç bir müasir yazıçısı, filosofu, yaxud ictimai xadimi ilə müqayisə etmək mümkün deyil. Yüzlərlə lirik, onlarla epik şeirlər və poemalar, mənzum dramlar, hekayələr, teleradio pyesləri, ssenarilər, monoqrafiyalar, saysız- hesabsız elmi, elmi-publisistik və publisistik məqalələr, xatirələr, tərcümələr, televiziyada, radioda, müxtəlif səviyyəli yığıncaqlarda çıxışlar, universitet auditoriyalarında mühazirələr… Əgər buraya B.Vahabzadənin çoxtərəfli ictimai-siyasi fəaliyyətini də əlavə etsək, etiraf olunmalıdır ki, o, həqiqətən, azman bir yaradıcı idi - onun yaradıcılığının miqyasını ancaq Azərbaycan ədəbiyyatı və ictimai fikri tarixində möhkəm yer tutmuş möhtəşəm şəxsiyyətlərin yaradıcılığının miqyası ilə müqayisə etmək mümkündür. Eyni zamanda, Azərbaycanın ictimai-siyasi, mənəvi-ideoloji həyatında elə bir hadisə olmamışdır ki, B.Vahabzadə ya yaradıcılığı, ya da ictimai fəaliyyəti ilə ona birbaşa, yaxud dolayısıyla toxunmamış olsun – Bəxtiyarın miqyaslı, məzmunlu yaradıcılığı, milli ideallara xidmət edən ictimai fəaliyyəti, böyük düşüncə potensialı onu müasir dövrün ən böyük, nadir şəxsiyyətlərindən biri etmişdir.

Şübhəsiz, böyük şəxsiyyət heç bir millətdə, heç bir tarixi dövrdə təsadüfən yaranmır – böyük şəxsiyyətlərin meydana çıxması üçün mükəmməl mənşə, zəngin etnokulturoloji potensial, nəhəng ictimai missiyalar olmalıdır; ikiyə parçalanmış Vətənin bütövlüyü, hüquqları ayaqlar altında tapdalanan, iqtisadi, siyasi, mənəvi təzyiqə məruz qalan, təbii sərvətləri vəhşicəsinə qarət edilən hər iki Azərbaycanın milli istiqlal və azadlıq amalı 50-ci illərdən etibarən B.Vahabzadə tipli bir şəxsiyyətin formalaşmasına şərait yaratmışdı – o, birbaşa mübarizə aparmaq, ideallarını manifest şəklində elan etmək imkanlarından məhrum olsa da, həyatının heç bir dövründə bu dünyaya hansı missiya ilə gəldiyini unutmadı, millətin azadlığı ideyasını ictimai tələbata çevirməkdə ən böyük rolu oynamaq da məhz ona nəsib oldu…

80-ci illərin ortalarından sonra tədricən "leqallaşan" xalq hərəkatının bir ideya mənbəyi Azərbaycan Demokratik Cümhuriyyətini

quranların məfkurəsi idisə, digər bir mənbəyi 50-70-ci illərin milli ziyalı (onların da önündə B.Vahabzadə gedirdi) düşüncəsi idi və qeyd etmək lazımdır ki, həmin ziyalılar 80-90-cı illər xalq hərəkatında həm bilavasitə iştirak etdilər, həm də hərəkatın fövqündə durub onun kifayət qədər analitik təhlilini verməklə, milli ictimai şüurun "mənsəb mücadiləsi" səviyyəsinə enməsinə mane oldular.

B.Vahabzadə öz böyük şəxsiyyəti ilə milli azadlıq ideologiyasının (və hərəkatının) təkcə aparıcı qüvvəsi deyil, həm də Vicdanı idi.

B.Vahabzadə həyatını elə yaşamışdır ki, hər vaxt hamının (ümumən, mənsub olduğu millətin!) üzünə dik baxa bilərdi – haqqı tapdalananlar həmişə ona müraciət edib, ona güvənirdilər… ürəyinin genişliyi, haqqın nahaqqa boğdurulmasına dözməməsi, həqiqət uğrunda hövsələsizliyə varacaq qədər mübarizliyi, laqeydliyə, biganəliyə etirazı Bəxtiyar Vahabzadəyə (xalqın təbiri ilə, Bəxtiyara) təkcə ayrı-ayrı adamların deyil, bütövlükdə Azərbaycan millətinin böyük sayğısını qazandırmışdı - bu sayğının bir səbəbi də Bəxtiyarın kindən-küdurətdən uzaq olması idi… Özü demişkən:

Əzəldən həqiqət aşiqiyəm
mən,
Başqa cür yaratmış təbiət
məni.
Əsərəm, coşaram dəryatək,
ancaq
Yaşatmaz kin məni, küdurət
məni.

B.Vahabzadənin emosiyasını, demək olar ki, onun haqqında yazan bütün tənqidçilər "od"la, "yanğı" ilə müqayisə etmişlər, ancaq eyni zamanda onun məntiqliyini, müdrikliyini də göstərmişlər. "Hissdən təfəkkürə, emosiyadan idraka keçid prosesində düşüncənin genişliyi, əhatəliyi" (Məsud Əlioğlu) B.Vahabzadəni səciyyələndirən bir əlamət kimi qeyd edilmişdir.

...O, hardasa "köhnə dünya"nın adamı idi, təbiri caizsə, "köhnə kişi" idi:

"Əgər mənim övladlarım mənim yanımda artıq-əskik danışmırsa, mən gələndə ayağa qalxırsa, mənim yanımda papiros çəkmirsə və bunu müşahidə edən müasir adam məni köhnəlikdə günahlandırırsa, qoy günahlandırsın. Mən onun istədiyi kimi müasir olmaqdansa, belə köhnə olmaq istəyirəm" ("Ömürdən səhifələr").

Və 1991-ci ildə Ali Sovetin sessiyasında bir sıra siyasi avantüristlər Azərbaycanın böyük siyasi xadimi H.Ə.Əliyevə qarşı hörmətsizlik edərkən B.Vahabzadənin dözməməsi də, əslində, dədə-baba adətlərinə ehtiramdan irəli gəlirdi: "Vaxtilə H.Əliyevin vəzifəyə gətirdiyi indiki yüksək vəzifə sahibləri bu gün adicə allah salamını verməkdən belə çəkinir, heç onun üzünə baxmaq da istəmirlər. Demək, bu adamların yuxarıdakına verdiyi salam da rüşvət imiş. Bəs hanı dədə-babanın "duz-çörək ənənəsi" - deyə Milli Məclisə müraciət edən B.Vahabzadə dədə-baba qaydalarının pozulmasından (özü də harada? Milli Məclisdə!) həyəcanlanır, narahat olurdu.

Elə böyük şəxsiyyətlər olmuşdur ki, millətin iradəsini öz subyektiv məqsədlərinə yönəltməyə çalışmışlar – elə şəxsiyyətlər də olmuşdur ki, millətin tarixi ehtiyaclarını duyub, dərk edib, həmin ehtiyacların ödənilməsi istiqamətində ardıcıl fəaliyyət göstərmişlər. B.Vahabzadə ikinci tip şəxsiyyətlərdən idi: o, Azərbaycan xalqının tarixi (və müasir!) problemlərini professional bir azərbaycanşünas kimi öyrənə-öyrənə bu xalqın həm "qeyri-formal", həm də "formal" vəkili olmuşdur.

Xalq qaşısındakı məsuliyyət özünü onun həm bədii, həm də elmi-fəlsəfi, həm də publisistik yaradıcılığında bariz hiss etdirmiş (və bu gün bilavasitə hiss etdirməkdədir).

Keçmişi də, gələcəyi də məhz "Vətən tarixi"nin səhifələri kimi vərəqləyən" (Yaşar Qarayev) B.Vahabzadə Vətəndaşlığın nə demək olduğunu həm özü, həm də millət üçün aydınlaşdırmağa çalışmaqla, mübaliğəsiz deyə bilərik ki, bu günə qədər bir institutun – "Vətənşünaslıq institutu"nun işini görmüşdür. O, heç təsadüfi deyildir ki, ömür səhifələrini də "Vətən tarixi"nin səhifələri kimi vərəqləmişdir: "Dünyaya göz açdığımız zaman ilk dəfə ayağımızı basdığımız torpaq - Ana Vətəndir. Sonralar min ölkəyə gedə bilər, min ölkənin suyunu içib havasını uda bilər, neçə-neçə torpağın müvəqqəti sakini

ola bilərik. Lakin bu torpağın, bu ölkənin heç biri bizə doğma torpağımızı əvəz edib Ana Vətən ola bilməz"…

Bəxtiyar Vahabzadə haqqında yazmaq yarım əsrdən artıq yaradıcılıq təkamülü keçirmiş kamil bir şəxsiyyəti araşdırmaq deməkdir, – öz-özlüyündə məlumdur ki, bu o qədər də asan deyil və təbii olaraq, məsələnin çətinliyini biz də hiss edirik; ancaq iş burasındadır ki, bütünlüklə milli hadisə olan B.Vahabzadə şəxsiyyəti, tədricən də olsa, şərh edilməli, açılmalı, müxtəlif yönləri ilə milli professional idrakın predmetinə çevrilməlidir. Öz böyük şəxsiyyətlərindən sərf-nəzər edib özgə məktəb-şəxsiyyətlərindən öyrənməyə meyilli olan millət, nəticə etibarilə, milli emosiyalardan, təfəkkürdən məhrum olub özgələr kimi düşünür, özgələr kimi həyəcanlanır, millətin qarşısına mürəkkəb problemlər çıxanda üzünü mütiliklə ya Şərqə, ya da Qərbə çevirir. B.Vahabzadə milli təfəkkürün elə mükəmməl məhsuludur ki, belə bir məktəbi olan millət "savadsız" ola bilməz – birincisi ona görə ki, "savadsız" millətin bu qədər mükəmməl məktəb yaratması mümkün deyil; ikincisi ona görə ki, bu qədər mükəmməl məktəbi olan millətin həmin məktəbdən öyrənməməsi mümkün deyil…

B.Vahabzadə məktəbi, sadəcə, millətçilik məktəbi deyil (və B.Vahabzadəni adi bir millətçi sayanlar səhv edirlər), bu, böyük millətşünas, millətsevərlik məktəbidir – Azərbaycan millətinin keçmişi, bu günü və gələcəyi ilə bağlı elə bir mühüm məsələ yoxdur ki, həmin məktəb onun üzərində düşünməsin, bu və ya digər qənaətini söyləməsin. Və B.Vahabzadə məktəbi ancaq şairlik məktəbi deyil, böyük filosofluq, nəhəng ictimai xadimlik məktəbidir – burada müdrik fikirlər, əhatəli düşüncələr ehtiraslı emosiyalar qədər güclü, rəngarəng, nüfuzedicidir.

Söz sənəti yarananda bəri dünyanın dərd-səri sənətkar qəlbində daşına-daşına gəlsə də nəticə etibarilə sənətkara yox, sənətə yük olub. Dədə Qorquddan Füzuliyə, Füzulidən S.Vurğuna qədər zaman anlamına sığmayan estetik meyarlar var; Dədə Qorqud, Füzuli, yaxud S.Vurğun müasirliyə həmin meyarların gözü ilə baxmaqdır.

B.Vahabzadənin yaradıcılığı insanın zaman sürəti ilə düşünmək ehtirasının ədəbi fikrimizin bugünkü səviyyəsində təzahürüdür.

Cəsarətlə deyə bilərik ki, B.Vahabzadə mənsub olduğu nəslin bütün mənəvi istəklərini şeirə gətirdi.

…Bu yazını böyük yazıçı Çingiz Aytmatovun "Bəxtiyar Vahabzadə öz möhtəşəm poeziya məbədini ucaltmaqdadır. O qüdrətlidir. Qoyduğu təməl möhkəm və gözəldir" fikri ilə bitirmək istərdim, ancaq Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycan dövlətçiliyinin qurucusu Heydər Əliyevin neçə illər əvvəl Bəxtiyar Vahabzadənin "Hara gedir bu dünya?!" pyesinin tamaşasına baxdıqdan sonra söylədiyi tarixi sözləri xatırlamamaq mümkün deyil: "Bəxtiyar Vahabzadənin hər bir əsəri dəyərlidir, qiymətlidir. Onun hər bir əsəri bizim mədəniyyətimizi, incəsənətimizi, ədəbiyyatımızı inkişaf etdirir".

Nizami Cəfərov,
AMEA-nın müxbir üzvü

Bəxtiyar Vahabzadənin həyat və fəaliyyətinin əsas tarixləri

Bəxtiyar Mahmud oğlu Vahabzadə 1925-ci il avqust ayının 16-da Şəki şəhərində anadan olub.

1934 - Bakı şəhərində 136 saylı məktəbin I sinfinə gedib.

1942 - Bakı şəhəri Oktyabr rayonu 172 saylı məktəbini bitirib və həmin il S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinə daxil olub.

1943 - "Ana və şəkil" adlı ilk şeiri "Ədəbiyyat qəzeti"ndə dərc edilib.

1944-1945 - "Ədəbiyyat" qəzetində şöbə mudiri vəzifəsində işləyib.

1945 - Azərbaycan Yazıçılar Birliyinə üzvlüyə qəbul edilib.

1945-1946 - "Azərbaycan gəncləri" qəzetində şöbə müdiri vəzifəsində işləyib.

1947 - S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib;
- S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin aspiranturasına daxil olub.

1949 - "Uşaqgəncnəşr"də Müasir ədəbiyyat şöbəsində redaktor vəzifəsində çalışıb;

- "Mənim dostlarım" adlı ilk kitabı Azərnəşrdə çap olunub.

1950 - S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında müəllim işləyib.

1951 - "Səməd Vurğunun poeziyası: (lirikası və poemaları)" mövzusunda namizədlik dissertasiyası müdafiə edib və Ali Attestasiya Komissiyasının qərarı ilə filologiya elmləri namizədi alimlik dərəcəsinə yiyələnib;
- S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında baş müəllim vəzifəsinə keçib.

1953 - Sov.İKP üzvlüyünə qəbul olunub.
- S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında dosent vəzifəsinə keçirilib.

1954 - SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif edilib.

1958 - İki yerə parçalanmış Azərbaycanın tarixi faciəsini əks etdirən "Gülüstan" poemasını yazıb.

1959 - SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə "Əməkdə fərqlənmə medalı" ilə təltif edilib;
- İran, İraq (Kərbəla şəhəri), Livan və Misir ölkələrində səfərdə olub.

1961 - Afrika boyu ölkələrində səfərdə olub.

1962 - "Gülüstan" poemasına görə "millətçi" damğası ilə Azərbaycan Dövlət Universitetindən çıxarılıb.

1964 - S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin ixtisaslaşdırılmış elmi şurasında "S.Vurğunun həyatı və yaradıcılıq yolu" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib.

1966 - S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasında professor vəzifəsinə seçilib.

1967 - Bakı şəhəri Zəhmətkeş deputatları Sovetinin XI çağırışına 320 №-li dairədən deputat seçilib.

1970 - S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri vəzifəsinə seçilib.

1974 - Azərbaycan sovet ədəbiyyatı və teatr sahəsində xidmətlərinə görə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "Azərbaycan SSR Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb;
- Portuqaliyada və Türkiyədə səfərdə olub.

1975 - Anadan olmasının 50 illiyi münasibətilə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunub.

1976 - "Leninlə söhbət" və "Muğam" poemalarına görə Azərbaycan Dövlət mukafatı laureatı adına layiq görülüb.

1977 - Rəsmi nümayəndə heyətinin üzvü kimi Türkiyədə olub.

1978 - Nümayəndə heyətinin üzvü kimi İngiltərədə olub.

1980 - X çağırış Azərbaycan SSR Ali Sovetinə Qobustan seçki dairəsi üzrə deputat seçilib;
- Azərbaycan SSR EA-nın müxbir üzvü seçilib;
- Almaniya Federativ Respublikasında olub.

1981 - SSRİ Yazıçılarının VII qurultayında SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü seçilib.

1984 - Azərbaycan SSR-in "Xalq şairi" fəxri adına layiq görülüb;
- "Bir gəminin yolçusuyuq" əsərinə görə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülüb.
- "Oktyabr İnqilabı" ordeni ilə təltif olunub.

1987 - "Azərbaycantelefilm"də anadan olmasının 60 illiyinə həsr olunmuş "Bəxtiyat Vahabzadə" adlı qısametrajlı sənədli televiziya filmi çəkilib.

1988 - M.F.Axundov adına ədəbi mükafata layiq görülüb.

1990 - Azərbaycan SSR Elmlər Akademiyasının 5 may 1990-cı il tarixli təqdimatına əsasən BDU-nun rektorluğu nəzdində məsləhətçi vəzifəsinə təyin olunub.

1990-1995 - Azərbaycan Respublikası Ali Sovetinin deputatı olub.

1991 - Azərbaycan Yazıçılar İttifaqının İdarə Heyətinin və Ağsaqallar Şurasının üzvü seçilib.

1995 - Anadan olmasının 70 illiyi münasibətilə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "İstiqlal ordeni" və Təhsil Nazirliyinin Fəxri Fərmanı ilə təltif olunub;
- Anadan olmasının 70 illiyi münasibətilə Elmi Bilikləri Yayan Cəmiyyətin Yusif Məmmədəliyev adına mükafatına layiq görülüb;
- Ankara Dövlət Universitetinin fəxri doktoru seçilib;
- Azərbaycan Respublikası Yeni Konstitusiya layihəsini hazırlayan V Komissiyanın tərkibinə daxil olunub.

1995-2000 - Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilib.

1999 - Türk Kültürünə Hizmət Vəqfi tərəfindən təsis olunmuş Türk dünyası – Türk Dili Şərəf Ödülünə layiq görülüb.

2000-2005 - Azərbaycan Respublikası Milli Məclisinin deputatı olub.

2000 - Azərbaycan MEA-nın həqiqi üzvü seçilib.

2002 - Rumıniyanın mədəniyyət sahəsində ən ali mükafatı olan Komandor dərəcəli "Ləyaqət" milli ordeni ilə təltif edilib;
- Türkiyənin Gedze şəhərində yerləşən Gənc Sənayeçi və İş Adamları Dərnəyi şairi 2001-ci ildə "Dünyada ilin ən başarlı şairi" adına layiq görüb.

2003 - "Azərbaycantelefilm" studiyasında "Bəxtiyar Vahabzadə" adlı tammetrajlı sənədli televiziya filmi çəkilib.

2009 - Fevral ayının 13-də 84 yaşında uzun sürən xəstəlikdən sonra Bakıda vəfat edib. Fəxri Xiyabanda dəfn edilib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 19 fevral 2009-cu il tarixində "B.M.Vahabzadənin xatirəsinin əbədiləşdirilməsi haqqında" Sərəncam imzalayıb.
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 dekabr 2009-cu il, 188 saylı Qərarı ilə "Bəxtiyar Vahabzadə adına" təqaüd təsis edilib.

2015 - 14 yanvar tarixində Azərbaycan Respublikası Prezidenti İlham Əliyev şairin 90 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb.

Bəxtiyar Vahabzadənin gündəliyindən

Bu yaxınlarda qırx ildən artıq bir müddətdə yazdığım gündəliyi vərəqləməyə başladım və belə qərara gəldim ki, bunları səliqəyə salıb çap elətdirim. Ona görə ki, mənim gündəliyim yaradıcılıq həyatımla yanaşı görkəmli şəxsiyyətlərimiz haqqında da maraqlı məlumatlarla zəngindir. Gündəlikdən bəzi səhifələri oxuculara çatdırmağı özümə borc bilirəm:

Süleyman Rəhimovun bir yazıçı kimi özünəməxsusluğu nədədir? – deyə məndən soruşsalar, deyərdim, - xalq həyatını, xalq ruhunu, psixologiyasını, dilimizin imkanlarını, əlvanlığını dərindən bilməsi və bu əngin dəryaya cəsarətlə baş vurub milli psixologiyamıza güzgü tutması bir yazıçı, əvəzsiz sənətkar kimi Süleyman Rəhimovun yarıdıcılığının ana xətti, əsas xüsusiyyətidir. Süleyman müəllimin zəhmətsevərliyinə, gecələrini gündüzlə-rinə qatıb yazıb-yaratmasına, sözün yaxşı mənasında həsəd aparmamaq olmur.

***

Mir Cəlal yaradıcılığının ən üstün cəhətlərindən biri də onun təmiz, şaqraq və büllur dilidir. Onun dili, xalq danışıq tərzinə uyğun, son dərəcə canlı, təbii ifadələrlə zəngin və təbii dildir. Buna görə də o, istər elmi, istərsə də bədii əsərlərə ilk növbədə dilin təmizliyi, qüsursuzluğu, ən ümdəsi xəlqiliyi baxımından yanaşır, bu vacib şərtləri hamıdan tələb edir.

***

O, 16 ildir ki, İranda öz vəsaiti ilə "Varlıq" dərgisini buraxır. Onun təkcə bu fəaliyyətinin dəyərini bu gün heç bir ölçü vahidi ilə ölçmək olmaz. Ona görə ki, ana dilinin hər yerdən qovulduğu bir ölkədə xalqıyla onun öz dilində danışmaq o xalqın varlığını qorumaq, onun yaşaması üçün əlindən gələn hər fədəkarlığı əsirgəməmək hansı meyarla qiymətləndirilə bilər?

Mən onun çap olunan bütün kitablarını böyük həvəslə oxumuş və bu kitablardan öyrənmişəm. Onun Azərbaycan tarixinə dair kitabı demək olar ki, masaüstü kitabımdır. Son illərə qədər bizim tariximizi başqa millətlərin alimləri yazmış, ən pis halda da onu başdan-ayağa qədər saxtalaşdırıb soykökümüzü kiminsə quyruğuna calamışlar**. Cavad Heyətin** kitabı mənim üçün bir də ona görə qiymətlidir ki, bu kitab türk ürəyi və türk düşüncəsi ilə yazıldığından, orada mənim milli varlığım olduğu kimi görünməkdədir.

***

Hikmət Ziya və onunla bir qrupda oxuyan ömür-gün yoldaşı Gülxanım universitetdə mənim tələbəm olmuşlar. Hikmət uşaq kimi sadə, mələk kimi xeyirxah idi. O, tələbəlik illərində necə idisə, ömrünün sonuna qədər elə də qaldı.

Bu da təsadüfi deyil. Ot kökü üstə bitər, deyərlər. Hikmət Şəkidə xeyirxahlığı və ailəcənablığı ilə seçilən həqiqi ziyalı ailəsində doğulmuşdu...

Şairliyinə gəlincə, yazdığı təmsillər onun ağlının itiliyini, dünya görüşünün kamilliyini, arzu və idealının böyüklüyünü göstərirdi. Belə ki, onun təmsilləri, içərisində yaşadığımız rejimin qüsurlarını, eybəcərliyini göstərən və ifşa edən tutarlı bədii parçalardır. Onun təmsillərinin qəhrəmanları ya əşyalardır, ya da heyvanlar. Buna görə də "Əşyalar, heyvanlar olmasa İnsana aid olan təmsilin sonuna nöqtə qoymaram" – deyə onu düzgün başa düşmək üçün özü oxucunun əlinə açar verir.

***

Ədəbiyyata gəldiyi gündən keçdiyi yolları izlədiyim, şəxsiyyətindəki bütövlüyə dərin hörmət bəslədiyim, əqidə yoldaşım **Sabir Rüstəmxanlı** bizdən sonra ədəbiyyata gələn nəslin seçilən öncüllərindəndir. O, 50 illik ömrünü elə-belə yaşamamış, mərhum şairimizin – Xəlil Rzanın dediyi kimi "kişi ömrü" yaşamışdır.

Cəsarətlə və bütün məsuliyyətimlə deyə bilərəm ki, onun ömür yollarında, bu keşməkeşli yolların bütün dolaylarında atdığı addımlar ayaqlarının deyil, əqidəsinin addımlarıdır. Bir sözlə, Sabir amal və əqidəsinin övladı olduğuna görə əqidə atasının buyuruğu ilə

ədəbiyyata gəlmişdir. Onu şairliyi əqidə sahibi etməyib, əksinə, əqidəsi onu şair edib.

***

Qələm yoldaşımız **Qarayev Yaşarın** ədəbiyyatımızın müxtəlif dövrləri, ədəbi məktəblərdə yetişən ayrı-ayrı sənətkarları, bu sənətkarların fikir tariximizə gətirdiyi istiqamət haqqında onlarla məqalələrini və kitablarını oxumuş, onun düşüncə və yazı tərzinin başqa ədəbiyyatşünaslardan tamamilə seçildiyini görmüşük.

Nədir bu seçkinlik? Onun təhlil üsullarındakı özünəməxsusluq? Əlbəttə, bunu bir-iki cümlə ilə demək çox çətindir. Mən yalnız öz müşahidəmi və mülahizəmi demək istəyirəm.

Yaşar təhlilə cəlb etdiyi ədəbi məktəbi, yaxud həmin məktəbin nümayəndəsini, yaxud həmin nümayəndənin bir əsərini zamanın fonunda götürməklə, zamanın gözü ilə ona baxmağı və buna görə də qol-budağa deyil, məhz mahiyyətə varmağı bacaran filosof təhlilçidir.

***

Hüseyn Abbaszadə ilə təxminən 60 il bundan əvvəl başlanan və bu günə qədər davam edən dostluğumuzun bünövrə daşı heç şübhəsiz, bizim fikir və əqidə birliyimizdir. Bu fikir, əqidə onun həm yaradıcılığından, həm də şəxsiyyətindən keçir. Hüseyn ən adi məişət məsələlərindən tutmuş, ən ali, müqəddəs duyğulara və fikirlərə qədər həyatda nədirsə, əsərlərində də odur. Mən onu həmişə elə görmüş, elə də tanımışam. Çünki onu idarə edən əməllərinə yön verən gündəlik qayğılar deyil, əqidəsidir, amalıdır.

***

Nizami "Xəmsəsi"nin tədqiqatı, təhlil və kommentariyası, Azərbaycan və rus dillərinə doğru, düzgün filoloji tərcüməsi işində Rüstəmin fəaliyyəti son dərəcədə əhəmiyyətlidir. Belə ki, fars dilini tədqiqatçılıq səviyyəsində bilməyən alimlərimiz üçün onun tərcümə və izahları nöqsansız qaynaq ola bilər. Əlbəttə, bir Azərbaycan türkü olmaq etibarilə hər bir azərbaycanlı üçün öz böyük şairini dərindən bilmək, tanımaq baxımından da Rüstəmin elədikləri əvəz-

siz xidmətdir. Şəxsən mən Nizaminin böyüklüyünü, onun Azərbaycan milli təfəkküründə hansı böyük fikirləri gətirdiyini **Süleyman Rüstəmin** filoloji tərcümələrindən və onlara yazdığı izahatdan öyrənmişəm.

***

Emin Sabitoğlunu bir bəstəkar kimi xalqa sevdirən mahnılarının özəyindəki melodiyadır. Yalnız mahnı janrında deyil, ümumiyyətlə, musiqinin canı, cövhəri melodiya olmalıdır.

Eminin demək olar ki, bütün mahnılarında romans janrının əlamətlərini görürük. Belə ki, bu mahnılarda olmuş bir əhvalat nəql olunur. Burda təəssüf qarışıq bir giley, intizar qarışıq bir peşmançılığın fəryadını eşidirik. Bununla yanaşı bu mahnılarda da vurğu əsasən nəqarətin üstünə düşür, hiss, həyəcan nəqarətdə sərgilənir və biz uzun müddət mahnısının təsirindən çıxa bilmirik.

Emin yaradıcılığının ikinci üstün cəhəti seçilən mətnin şair qədər duylmasındadır. O, seçdiyi mətni köynək kimi qəlbinə geyir, onun istisinə isinir. Onu öz duyğusuna çevirib, sonra piano arxasına keçir.

***

Bəkir Nəbiyev müasir ədəbiyyatımızın tədqiqatçısıdır. O, bütün ömrü boyu zərgər dəqiqliyi ilə gözlərinin qarşısında boy atan, yüksələn ədəbi prosesi izləmiş, onun keçdiyi yolları dəyərləndirmiş, yönümünü müəyyənləşdirmişdir.

Bu, çox çətin məsələdir. Ona görə ki, klassiklərimizi tədqiq edən alim, müəyyənləşmiş prosesi izləyirsə, bugünkü ədəbiyyatı öyrənən alim, hara gedib çıxacağı məlum olmayan, tamamlanmamış, hələ yolda olan ədəbi prosesi tədqiq edir və yaxşısını-pisini göstərməklə ona yön verməyə çalışır. Olanı göstərmək, tədqiq etmək bu mənada asandır, hələ yolda olan yolçunun mənzil başına qədər hansı cığırlardan keçib ana yola çıxmasına kömək etmək kimi çətin iş tənqidçi alimin boynuna düşür.

***

Altmışıncı illərdə ədəbiyyatımıza gələn yeni nəslin içərisində **Anarın** ayrıca dəst-xətti, ayrıca yeri var. Mən demək olar ki, onun bütün əsərlərini oxumuşam. Anarı bir yazıçı kimi mənə sevdirən əsas cəhət onun əsərlərindəki psixologizmdir. Belə ki, o, yaratdığı obrazların hərəkətlərinə, əməllərinə oxucunu inandıra bilir. Ona görə ki, yaratdığı obrazlar onun yazıçı duyumundan süzülüb obrazlaşır. Buna görə də, mən bu obrazların çölünü (sifətini) deyil, iç dünyasını, qəlbindəki təlatümləri, həyəcanları görür, mənfi və müsbətliyindən asılı olmayaraq bu xarakterin məhz bu cür hərəkət edəcəyinə inanıram. Bu isə yazıçılıqda son dərəcə əsas məsələdir.

Görkəmli şəxsiyyətlər Bəxtiyar Vahabzadə haqqında

Sizin şəxsiyyətiniz və yaradıcılığınız xalqın milli təfəkküründən formalaşmasına xidmət etmiş, onu milli dirçəlişə səsləmiş, istiqlaliyyət uğrunda mübarizədə əvəzsiz rol oynamışdır. Siz hər zaman azadlıq carçısı olmuş, ən çətin anlarda belə güc və silah qarşısında baş əyməmiş, əqidəsindən dönməyən şair, mübariz millət vəkili, yorulmaz ictimai xadim kimi xalqın müdafiəsinə qalxmışsınız.

***

Mən hələ Dövlət Təhlükəsizliyi Komitəsində işləyən zaman Bəxtiyar Vahabzadənin həbs olunması məsələsi meydana çıxmışdı. O vaxt mən onu xilas etdim, qoymadım həbs olunsun. Nəinki qoymadım, onunla dəfələrlə söhbətlər apardım, öz məsləhətlərimi verdim. Bunlar hamısı onun xatirələridir. Belə bir insan o vaxtlar böyük fəlakət qarşısında idi. Nəyə görə? Heç bir cinayət yox idi. Ona görə ki, millətini sevirdi, millətin qayğıları haqqında yazılar, şeirlər yazırdı.

"Gülüstan" poemasını yazmışdı. Ondan ötrü o zaman həbs etmək məsələsini qoymuşdular.

Heydər Əliyev,
Azərbaycan xalqının ümummilli lideri

Sizin yüksək bədiiliklə qələmə aldığınız əsərlər milli qaynaqlardan bəhrələnərək vətənpərvərliyin tərənnümü, insanın mənəvi ucalığı və fəlsəfi düşüncələrlə səciyyələnir.

***

Siz yaradıcılığını Vətənimizin azadlığı, müstəqilliyi və bütövlüyü uğrunda mübarizəyə həsr etmiş, milli şüurun yetişməsində mühüm rol oynamış və gənc nəslin milli-mənəvi dəyərlər sistemində tərbiyə olunması işinə böyük xidmətlər göstərmiş söz ustadlarımızdansınız. Poeziya sənətimizin ənənələrini zamanın sınaqlarından çıxaran və yaşadan bir şair kimi adınız ölkəmizdə daim ehtiramla çəkilir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

Hörmətli Bəxtiyar Vahabzadəyə!

Sizi, Azərbaycan xalqının böyük istiqlal şairini anadan olmağınızın 70 illiyi münasibətilə təbrik etməkdən böyük şərəf duyuram. Sizin ədəbi yaradıcılığınız bütün türk dünyasının mənəvi birliyi və yüksəlişi ilə də yaxından əlaqəlidir. Odur ki, sizə sadəcə azərbaycanlı qardaşlarımızın deyil, çağdaş türk dünyasının böyük bir qələm ustadı olaraq salamlayıram.

Əsərləriniz ölkəm Türkiyədə də böyük maraqla oxunmaqda, tədqiq edilməkdə və bəyənilməkdədir. Türkiyə Cümhuriyyətinə bəslədiyiniz sevgi xalqlarımız arasındakı dostluq və qardaşlıq əlaqələrinin güclənməsinə əhəmiyyətli dərəcədə təkan vermişdir. Bu istiqamətdə xeyirxah fəaliyyətinizi bundan sonra da davam etdirəcəyinizə əminəm.

Sizə Azərbaycanın haqq işi və inkişafı yolunda apardığınız mübarizədə uğurlar, cansağlığı və səadət diləyirəm.

Süleyman Dəmirəl,
Türkiyə Cümhuriyyətinin sabiq prezidenti

Bəxtiyar hər nə yazırsa, ürəkdən yazır, təbii yazır, təmənnasız yazır. Biz onun lirikasının avazında saxta notlar hiss etmirik.

Bəxtiyarın sənətkar kimi təqdirəlayiq cəhətlərindən biri də onun şeir dili və doğma ana dilinə dərin bir məhəbbət duyulur. Doğma ana dilinə münasibət, bu dildə yazıb-yaratmaq dünya mədəniyyətinin, dünya ədəbiyyatının böyük ənənələrindəndir. Hər xalqın ədəbiyyatı həmişə onun doğma ana dilində yaranmışdır.

İlyas Əfəndiyev,
Xalq yazıçısı

B.Vahabzadə Azərbaycan xalqının yetirdiyi o sənətkarlardan biridir ki, qələmini əlinə aldığı gündən etibarən öz doğma xalqının

hiss və həyəcanlarını ağ kağıza köçürmüş, ağ kağızda ifadə etmişdir. Xalqın sevinci ilə yaşamış, xalqın dərdinə, qəminə, ələminə şərik çıxmışdır və Bəxtiyar Vahabzadə şübhəsiz xoşbəxt sənətkardır. Xoşbəxt bir sənətkardır ona görə ki, xalq onu sevir, onun özünün nüfuzlu, mötəbər sirdaşı, dərddaşı hesab edir. Bəxtiyar Vahabzadə xoşbəxt sənətkardır ona görə ki, onun sənəti son dərəcə milli olmağıyla bərabər, eyni zamanda, bəşəri bir səciyyə daşıyır. Və ona görə də onun çoxmilyonluq oxucu auditoriyası var. Onun şeiri coğrafi və milli çərçivələr, sərhədlər tanımır.

Elçin,
Xalq yazıçısı

Torpağımıza azadlıq, müstəqillik baharının gəlməsini ilk duyan, bu baharın gəlməsi üçün illər boyu çarpışan və bu baharı ilkin salamlayan, müjdələyən şairlərimizdən biri də Bəxtiyar Vahabzadədir. Sovet senzura sisteminin dar çərçivələri içində də Bəxtiyar Vahabzadə öz sözünü deyə bilmiş, hələ o illər Şəki qəzetində çap etdirdiyi "Gülüstan" poemasında xalqımızın tarixi faciəsi haqqında, bölünməsi, ikiyə ayrılması, parçalanması və əsarətə düşməsi haqqında təsirli, yanıqlı bir dillə söz açmışdı. Son beş-altı ildə də azad, müstəqil Azərbaycan uğrunda mübarizənin çətin yollarında Bəxtiyar müəllimi həmişə ön sıralarda görmüşük, görürük və inşallah, hələ çox illər görəcəyik. Hər bir böyük şairimiz kimi Bəxtiyar Vahabzadənin də bəzən başa düşülmədiyi, niyyətinin, sözünün tərs yozulduğu məqamlar olub. Amma bütün böyük sənətkarlar kimi o, səbir, dözüm sınağından da ləyaqətlə keçə bilib.

Anar,
Xalq yazıçısı

Vahabzadənin poetik təfəkkür mədəniyyəti təbiətcə millidir. Bu, müstəsna dərəcədə zəruri haldır ki, sən övladı olduğun xalqın nitq hissəsində fel olmağı bacarasan, xalqının canlı dil memarlığına öz töhfəni verə biləsən.

Bununla yanaşı, Vahabzadənin poetik təfəkkür mədəniyyəti daha üstün mahiyyət kəsb edir və millilikdən ümumbəşəri fövqə qalxır. Milli və beynəlmiləl münasibətlər problemi günümüzün canlı

mübahisələrə çevrilən məsələlərindən biridir və bu problem... öz mütərəqqiliyini, obrazlılığını, nadir əhatəliyini və məhsuldarlığını bir daha Vahabzadə yaradıcılığında tapıb. İndiki halda sən azərbaycanlı şairi oxuyanda - dünyanı oxuyursan.

Bundan başqa mən Vahabzadənin görkəmli sənətkar - şair üstünlüklərini, çox güclü cəhətlərini qeyd etmək istərdim. Lirizm və vətəndaşlıq Bəxtiyarın yaradıcılığında ayrılmaz qoşa simlərdir və bu simlər onun şəxsi və ictimai dünyagörüşünün qüdrətliliyinə bir daha şəhadət verir.

O, vətənpərvərdir, o aqildir, sözün yaxşı mənasında nəsihət verən, yol göstərən sənətkardır. Vahabzadənin başqa kamil cəhətlərindən biri də odur ki, şair öz əsərlərində tarixi müasirlik qədər yaşada bilir. Keçmişə görə əzab çəkmək, ona bu günün gözüylə baxmaq - Bəxtiyarın mövzu dairəsinin genişliyindən, mürəkkəbliyindən və zənginliyindən xəbər verir.

Çingiz Aytmatov,
Qırğızıstanın Xalq yazıçısı

Bəxtiyarın müxtəlif millətlərdən olan oxucuları, həmkarları onun son dərəcə milli və beynəlmiləl şair olduğunu ayrıca qeyd və təsdiq etmişlər. Bu millilik və beynəlmiləlliyin vəhdəti onun beynəlxalq mövzuda yazdığı əsərlərində və ümumiyyətlə, siyasi lirikasında çox parlaq ifadəsini tapmışdır.

Məmməd Cəfər,
akademik

Mən Vahabzadənin ədəbi portretini yazmıram, məqsədim onun poeziyasına təhlil vermək də deyildir. Mən yalnız onu demək istəyirəm ki, B.Vahabzadə son dərəcə sürətlə artan, yaradıcılığının həm mövzu dairəsini genişləndirməyə, həm də müstəqil bədii üslubunu yaratmağa inadla çalışan və bunun üçün də get-gedə oxucuların daha da rəğbətini qazanan görkəmli bir şairdir. Tənqidçilər, adətən, lirik və epik əsərlər yaradan şairin bu janrlardan hansında daha artıq müvəffəqiyyət qazandığını təyin eləməyə meyl göstərirlər. Vahabzadə hər iki janrda eyni dərəcədə tələbkardır. Onun yaradıcılığı öz fikri-bədii istiqaməti etibarilə müasir şeirimizin baş xəttinə

sadiqdir və bu yolda şairi daha böyük nailiyyətlər gözləyir. Mənim buna heç şübhəm yoxdur.

Mehdi Hüseyn,
Xalq yazıçısı

Bəxtiyar Vahabzadənin ən çox cəlb edən mövzular sırasına bir də zaman və sürət, zaman və kosmos haqqında düşüncələrini daxil etmək olar. O, qitələri və planetləri birləşdirən, ömrü gələcəyə yaxınlaşdıran sürəti tərənnüm edir. çox vaxt yanaşı, qoşa işlətdiyi sürət və zaman anlayışlarına, onlar arasındakı vəhdət və əlaqələrə şairin verdiyi poetik mənalarda zamanı ləngitmək, anında ömrünü uzatmaq haqqında hələ Faustunelan etdiyi poetik çağırışın davamını görürük.

Yaşar Qarayev,
AMEA-nın müxbir üzvü

Bəxtiyar Vahabzadə azad fikirli qəhrəmanlarını mütəfəkkir şair və şəhidlər, onların düşmənlərini isə doğma övladlarının belə üz döndərməyə hazır olduğu amansız, kütbeyin ehkamçılar kimi təsvir etməkdə haqlıdır. Onların davranışında xeyirxahlıq və şəxsi mənafe güdmək cəhdindən daha güclüdür. Müəllif tarixi həqiqəti təhrif etməyib. Çünki qədim türklərə təmənnasızlıq, rəşadət və öz ideallarına sədaqət xas idi. Məhz bu keyfiyyətlər türklərə bəşəriyyət tarixində şərəfli yer tutmaqda kömək etmişdir.

Lev Qumilyov,
rus tarixçisi,akademik

...Bəxtiyar Vahabzadənin əsərlərində müasirlik hissi çox güclüdür. O, qələmə aldığı bütün ictimai-tarixi məsələlərə də insanın maddi ehtiyacları və tələbləri baxımından yanaşır. Elə fikirləri və hissləri diqqət mərkəzinə çəkir ki, onlar bu gün İnsanı düşündürən, həyəcanlandıran fikir və hisslərdir. Şair bu günün insanını zaman və məkandan təcrid olunmuş halda təsvir etmir. O yerdə ki, bədii meyar imkan verir, orada Bəxtiyar insanın yerini, yurdunu, ünvanını göstərir. O yerdə ki, imkan vermir, orada qəhrəmanın kimliyi və

haradan olduğu hissiyyatından, fikirlərindən, danışıq tərzindən, əxlaqi sifətlərindən aydın bilinir.

***

Bəxtiyar Vahabzadə şeirimizin Füzuli, Vaqif, Sabir, Səməd Vurğun, Aşıq Ələsgər, Şəhriyar bulağından su içmişdir. O, sözü elə gözəl oynadır, elə parlaq təzadlar yaradır, fikri gözlənilmədən elə döndərir, elə dərinləşdirir və fəlsəfi ümumiləşdirmələr səviyyəsinə elə qaldırır ki, oxuyanda valeh olursan, hədsiz sevinc və mənəvi-estetik ləzzət duyursan. Lakin bu, sadəcə, adi sevinc və ləzzət deyil, fikir və məna ilə doludur, insanı mütləq düşündürür.

Mirzə İbrahimov,
Xalq yazıçısı

Bəxtiyar Vahabzadənin yaradıcılığında mənim xoşuma gələn nədir? Bu suala belə cavab verərəm: ilk növbədə vətəndaşlıq, azərbaycanlılıq, sonra da cəsarət, dərinlik. Onun respublikamızdan kənarlarda çap olunan şeirlərində imzasının yanında "Azərbaycan" sözünü yazmamaq da olar. Sanki onun bütün yaradıcılığında "Azərbaycan" möhürü vurulmuşdur. "Vətəndaş" şeiri buna yaxşı sübutdur.

Süleyman Rüstəm,
Xalq şairi

Bu gün müasir Azərbaycan şeirini – bu böyük milli mədəniyyətimizi ləyaqətlə təmsil edən, biz oxucularına yeni-yeni, təzə-tər misralar bəxş edən vətənpərvər bir şair ürəyi həmişəki eşq ilə çırpınır. O oxunur, sevilir, sevir.

Nəriman Həsənzadə,
Xalq şairi

Rus dinləyicisi üçün Azərbaycan dili, hətta kin-küdurətin ifadə anlarında belə, çox yumşaq səslənir. Dilin fonetikasının özülündə bir qılıq, istilik, həzinlik, nəğməlilik gizlənmişdir. Bəxtiyarı dinləyəndə, dili bilməsən də, onun şeirləri adama şirin-soy gəlir. Hətta sətri tərcüməni oxuyanda dilin gözəlliyi arxasında gizlənmiş dərin

qəm və kədəri hiss edirsən. Elə bil ki, Azərbaycan narıdır: şirəsini içirsən - şirindir, qabıqlı yesən acıdır.

Yevgeni Yevtuşenko,
rus şairi

Bəxtiyar Vahabzadə sözün əsl mənasında şairdir. Onun poetik fırçasının çəkdiyi lövhələr rəngarəng və maraqlıdır. Dili şirəli və koloritlidir. Vahabzadənin poeziyası - düşüncələr poeziyasıdır. Bu düşüncələr bəzən həyatın üst qatlarına toxunsa da, şeirlərinin bir qismində ayrı-ayrı motivlər - məsələn, yaxınlaşmaqda olan qocalığın kədərli müjdəçisi olan ağaran saçlar motivi təkrar olunsa da, ümumiyyətlə, Vahabzadənin poeziyası müasir Azərbaycan ədəbiyyatının maraqlı hadisələrindəndir. Şair ən yaxşı şeirlərində oxucuları ilə məhrəmanə söhbət edir. Adama elə gəlir ki, o daha bir şeir yazmaq istəməmiş, öz dəruni fikirlərini ən yaxın dostları – oxucuları ilə bölüşməyi arzulamışdır. Şairin ovqatı qeyri-ixtiyari olaraq sizə sirayət edir sizi sevinc, kədər bürüyür. Siz əvvəllər, bəlkə də, qəlbinizdə bu cür emosiyalar doğurmayan şeylərin, hadisələrin mənası haqqında düşünməyə başlayırsınız.

İndi isə həmin şeylər, hadisələr dəqiq tapılmış şairanə sözlərin gücü ilə qat-qat mühüm əhəmiyyət kəsb edir. Onlar sizi fəaliyyətə, məhəbbətə, nifrətə çağırır.

***

Şair Bəxtiyarın bəxtiyarlığı onun qibtə ediləcək dərəcədə böyük olan poetik istedaddır. Bu yaradıcılıq istedadı ona dərin xalq məhəbbəti qazandırmışdır. Onu Vətənin sevimli şairi etmişdir. Belə bir tale səadətdir. Belə bir İnsan həqiqətən bəxtiyardır. Bu bəxtiyarlıq bir insan, bir vətəndaş, bir nəğməkarın bəxtiyarlığıdır. Mən Bəxtiyarı belə tanımışam, belə duymuşam, belə sevmişəm.

Rəsul Rza,
Xalq şairi

Bəxtiyar Vahabzadə deyir ki, elə uşaq doğan kimi adam ana olmur. Analıq qadın üçün çox böyük rütbədir. Qeyrəti, namusu yaşa-

da bilən qadınlar axırda gəlib ana olurlar. Analıq müqəddəslik mərtəbəsidir. Qeyrət, namus isə ağrıya-acıya dözə bilmək tələb eləyir.

Fikrət Qoca,
Xalq şairi

Şeirlər, poemalar, radio-pyeslər...

On ildən artıqdır ki, radioda Bəxtiyar Vahabzadənin şeirlərinin, poemalarının, radio-pyeslərinin ifaçısı olmuşam.

İndi də radionun "Qızıl Fond"unda olan həmin lent yazıları səslənəndə bu əsərləri maraqla dinləməyə məcbur olursan. Çünki bunlar, eyni zamanda ifaçını da düşündürür, hisslərini coşdurur, gözəlliyə, təmizliyə çağırır. Bəxtiyarın dram əsərlərində iştirak etmək mənə də nəsib olmuşdur. Yadımdadır: "Yağışdan sonra" əsərinin rol bölgüsündə mənə Qədim bəy surəti tapşırılmışdı. Mən nədənsə ilk məşqlər zamanı özümü bu rolda tapa bilmirdim. Bir aktyor kimi romantik obrazlar məni daha çox maraqlandırırdı. Lakin iş zamanı aydın oldu ki, məhz Qədim bəy də yaşına, təcrübəsinə, sərt xasiyyətinə baxmayaraq, son dərəcə romantikdir. Yəni, başqa cür də ola bilməzdi. Bəxtiyarın dram əsərləri də bir növ, mən deyərdim, lirik poemadır.

Əli Zeynalov,
Xalq artisti

B.Vahabzadə poeziyasında istər tarixə, istərsə müasir həyata münasibətdə əsas meyar vətəndaşlıq duyğusudur, bunsuz şair qələmi işləməz, Vətən və vətəndaş haqqında poetik söz deyilə bilməz, deyilsə də alayarımçıq olar.

Əkbər Ağayev,
professor

Mənim fikrimcə, Bəxtiyarı xalqa və oxucularına sevdirən cəhətlərdən ən başlıcası şeirlərindəki vətəndaşlıq hissinin güclü olmasıdır. Sən dünyamızda baş verən hadisələri həssaslıqla izləyən şairlərimizdənsən. Həyatda baş verən müsbət hadisələri ürək açıqlığı, ilhamla tərənnüm etdiyin kimi, mənfi hallarla, onları törədən dönüklərə, elinə, obasına arxa çevirənlərə, dilini, millətini, vətənini ağala-

rına xidmət müqabilində dananlara qəzəbini gizlədə bilmirsən. Belə hallarda Bəxtiyarın səsi daha da gur eşidilir.

Balaş Azəroğlu,
Xalq şairi

İnanırsan ki, Bəxtiyar şeirinin bulaqları bolluqdadır, bu çeşmələr axa-axa, birləşə-birləşə bütün bir çaya çevrilməkdədir. Bəxtiyar şeiri xalqımızın şeriyyət ieşmələrindən bəhrələnməkdir. Bu şeir hələ daha da gur şəlalə kimi çağlayacaqdır. Vaxtilə "çəlimsiz oğlan" kimi görünən bu şair şeir dünyasında çox qüdrətli, bir sel olmuşdur. Nə Bəxtiyar, nə də Bəxtiyar şeiri mövsümi əlbəsə kimi dəyişməyəcəkdir, onun addımları əbədiləşəcəkdir. O, Azərbaycan şeirində abidə kimi qalacaqdır. Şair Bəxtiyar bir şeir bəxtiyarı kimi bu gün də bəxtiyardır, sabahına-gələcəyinə öz əlidoluluğu, alnıaçıqlığı ilə bəxtiyardır. Bu gün Bəxtiyarın şeirləri, şeir kitabları dil-dil, əl-əl gəzir.

Süleyman Rəhimov,
Xalq yazıçısı

B.Vahabzadə poeziyası əzabkeş fikrin, dünya, İnsan, sevgi və azadlıq haqqında çırpıntıların poeziyasıdır. Bu poeziya tarixin şah damarını axtarır, bir sözün, bir obrazın maqnit sahəsində keçmişi, bu günü və gələcəyi qovuşdurur. Hər dəfə də dünyanın taleyinə bir nöqtədən - bütün mənəvi qüdrətini İnsanların yolunda sərf etməyə hazır olan fədakar humanizm zirvəsindən yanaşır.

Aydın Məmmədov,
türkoloq-alim

Bəxtiyar poeziyası döyüşdür - o, ictimai haqsızlıqla, biganələrlə, şöhrətpərəstlərlə, ikiüzlülərlə, qorxaq və əxlaqı natəmizlərlə döyüşür. Bəxtiyarın zəkalı, tutarlı, qaynar, xoşsözlü şeiri gözümüzün qarşısında doğma lövhələr yaradır; başı qarlı Kəpəz, Şahdağ, Savalan, Kürün, Arazın uğultulu qıjovları, Muğanın, Şirvanın il boyu yaşıl donlu, ucsuz-bucaqsız vadiləri vəsf olunur; onun şeirində coşğun Xəzər, mavi, zümrüd səma, mehriban cənub günəşimiz canlanır.

Niyazi,
Xalq artisti

Bəxtiyar son dərəcə pak, ürəyitəmiz adamdır, dərin bilikli, heyrətamiz dərəcədə rəngarəng duyğular və fikirlər aləmi olan adamdır, bir sözlə, əsl şairdir. İnsana xidmət şairin fəaliyyətinə istiqamət verən əsas qayədir. Onun təravətli, gözəl şeirləri oxucunu dərhal bu şeirlərdə təsvir edilən aləmlə yaşamağa məcbur edir və biz onunla birlikdə şərlə mübarizə aparır, sevir, qurub-yaratmağa can atırıq, həyatımız dəruni duyğularla zənginləşir, arzu və ümidlərimiz qanadlanır. Həm şair, həm də İnsan kimi mən Bəxtiyar müəllimdən çox şey öyrənmişəm. Zənnimcə, şairin poeziyası ilə təmasda olan hər kəs bu halı keçirir.

Rimma Kazakova,
şair, tərcüməçi

